*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 22 dekabr 2018-ci il № 99 (2315) Qiyməti 25 qəpik


*Ön xətdə düşüncələr*

## Ömür Vətən üçündü!..



Hələ orta məktəbdə oxuyanda müəllimlərimin, valideynlərimin söhbətləri, müharibə haqqında eşitdiklərim, oxuduqlarım, televiziyada gördüklərim qəlbimi ağrıdırdı. İşğal olunmuş torpaqlarımız haqqında düşünürdüm. Bağanıs-Ayrım, Ağdaban, Meşəli, Xocalı faciələrinin ağrılarını mən də yaşayırdım. "Ağ atlı oğlan" bədii filmi də mənim düşüncələrimi silkələmişdi: bu yaşda uşaq Vətənin müdafiəsinə gedir. Deməli, mən də gedə bilərəm və getməliyəm.

Tay-tuşlarımdan hansısa fikrimi müəllimimizə deyibmiş. Tənəffüsdə müəllimim mənə dedi ki, indi ordumuz formalaşır. Siz yaşda uşaqların döyüşə getməsinə ehtiyac yoxdur. Oxu, hərbi təhsil al, Vətənə zabit kimi xidmət et.

Məsləhət mənim ömür yolumun axarını müəyyənləşdirdi. Hərbçi olmağı qərara aldım. İstəyimi valideynlərim də dəstəklədi. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil oldum.

(Ardı 2-ci səhifədə)



"Torpaqlarımızı azad edəcəyik!"

4-cü səhifədə



"Mehdilər, Həzilər, ..., Mübarizlər tarix yazacaq!"

5-ci səhifədə



"Biz qalib gələcəyik!"

8-ci səhifədə



MOİK idmançıları güləş üzrə Azərbaycan çempionatında 14 medal əldə ediblər

8-ci səhifədə

# Müdafiə Nazirliyində ilin yekunlarına və 2019-cu ildə qarşıda duran vəzifələrə dair geniş kollegiya iclası keçirilib

*Dekabrın 19-da Müdafiə Nazirliyində general-polkovnik Zakir Həsənovun rəhbərliyi və kollegiya üzvlərinin iştirakı ilə 2018-ci tədris ilində qoşunların hazırlığı üzrə yekunlara və 2019-cu ildə qarşıda duran vəzifələrə dair geniş tərkibdə iclas keçirilib.*





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iclasda hesabat dövründə ordu quruculuğu sahəsində görülən işlər və əsas istiqamətlər üzrə yerinə yetirilən tapşırıqlarla bağlı məruzələr dinlənilib, son dövrlərdə həyata keçirilən islahatlar, qoşunların döyüş hazırlığının vəziyyəti, xidməti və digər məsələlər müzakirə olunub.

Müdafiə naziri 2018-ci ildə xidməti döyüş hazırlığının yekunları və 2019-cu tədris ilində qarşıda duran vəzifələr haqqında geniş məruzə ilə çıxış edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Ordusuna verdiyi qiyməti, göstərdiyi diqqət və qayğını xüsusi qeyd edən Müdafiə naziri Ali Baş Komandanın rəhbərliyi ilə son illər ərzində əldə edilən nailiyyətlərdən danışıb.

General-polkovnik Zakir Həsənov cari ildə görülən tədbirlərin təhlilini apararaq döyüş hazırlığı və mənəvi-psixoloji vəziyyət, müdafiə sistemi və onun hərtərəfli təminatı məsələlərini diqqətə çatdırıb, qoşunların döyüş qabiliyyətinin artırılması məqsədilə 2019-cu tədris ilində qarşıda duran əsas vəzifələrin icrası ilə əlaqədar komandir-rəis heyəti qarşısında tapşırıqlar qoyub.

Müdafiə nazirinin əmrinə əsasən, 2018-ci tədris ilində döyüş hazırlığının yekunlarına görə xidmətdə fərqlənən hərbi qulluqçular təltif edilib, qiymətli hədiyyələrlə mükafatlandırılıb və bir qrup zabitə növbəti "polkovnik" hərbi rütbəsi verilib.

Sonda kollegiya iclasının qərar layihəsi müzakirə edilərək qəbul olunub.

# Müdafiə naziri Cəmşid Naxçıvanski adına Hərbi Liseydə əsaslı təmir-tikinti prosesi həyata keçirilən obyektlərə baxış keçirib







Dekabrın 20-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Cəmşid Naxçıvanski adına Hərbi Liseydə əsaslı təmir-tikinti prosesi həyata keçirilən obyektlərə baxış keçirib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Müdafiə naziri inşaatla bağlı əvvəl verilən tapşırıqların icrasını yoxlayıb, yerinə yetiriləcək işlərin keyfiyyətlə və vaxtında başa çatdırılması ilə bağlı konkret göstərişlər verib.

Kursantların sosial məişət şəraitinin daha da yaxşılaşdırılmasının vacibliyini bir daha vurğulayan general-polkovnik Zakir Həsənov gələcəyin zabitləri üçün ən yüksək standartlara cavab verən xidmət şəraitinin yaradılması və bir sıra digər məsələlərin həllinə dair müvafiq tapşırıqlar verib.

# Ömür Vətən üçündü!..

(Əvvəli 1-ci səhifədə)

Kursant idim. Dərslərdə fəallıq göstərməyə çalışır, oxuyur, öyrənirdim. Təlimlərdə hiss edirdim ki, öyrəndikcə bu peşə mənim amalıma çevrilir...

Zabit kimi hərbi xidmətə ön xətdən başladım. Etiraf edim ki, təhsildən fərqli olaraq xidmətin müəyyən çətinlikləri var. Mən bu çətinliklərin öhdəsindən komandirlərimin, təcrübəli zabit yoldaşlarımın məsləhətiylə gəlməyi bacardım. Komandirimin bir kəlməmını heç zaman unutmayacam: "Yaxşı zabit olmaq üçün istək azdı, zəhmətə qatlaşmağı da bacarmalısan. Onda hərbi xidmət sənin ömrün olacaq". Hərbi xidmətin ömrüm olması niyyətiylə xidmət etdim, indi də belə xidmət edirəm.

2016-cı ilin aprel döyüşləri ordumuzun möhtəşəm qələbəsiylə başa çatdı. Biz də qürurlandıq. Döyüşlərdə iştirak etməsək də, o qələbəni elə iştirak edənlər qədər sevinclə, sevgiylə yaşadıq. Ali Baş Komandan döyüş əmri verərsə, bu qələbəni Böyük Qələbəylə tamamlayacağıq.

Azərbaycan Ordusunun yaranmasının 100 illiyinə həsr olunmuş paradı mən əsgərlərimlə birgə izlədim. Onda əsgərlərimin baxışlarında gördüyüm qüruru ifadə etməyə çətinlik çəkirəm. Hər biri parada tribuna önündən nizami yerişlə keçənlərin sırasında olmaq istəyiylə baxırdı. "Qalib gələcəyik, siz Böyük Qələbə paradında iştirak edərsiniz", - dedim. Əsgərlərimin - "Kaş döyüşlər olacaqsa, biz tərxis edilənə kimi olsun. Qələbənin əsgəri olmaq istəyirik, komandir!", - kəlmələri məni o qədər duyğulandırdı ki! Paradda Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin inamla dediyi fikir - "Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək", - əsgərlərimi coşdurdu. İnandım ki, hər biri o günün həsrətindədi.

Ordumuzda həyata keçirilmiş irimiqyaslı islahatlar biz zabitlərin də, əsgərlərin də mənəvi-psixoloji hazırlığının yüksəlməsini təmin edib. Ali Baş Komandanın, Müdafiə nazirinin ön xətdə əsgərlərlə görüşləri, söhbətləri bu hazırlığı daha möhtəşəmliklə yüksəldir. Əsgərlərimiz bu etimad, bu sayğı müqabilində daha böyük məsuliyyətlə xidmət edirlər.

Torpaqlarımız işğaldan azad ediləcək. Biz azad edəcəyik. İşğaldan azad edəcəyimiz kəndlər Cocuq Mərcanlı kimi yenidən qurulacaq. Həmin günləri tezləşdirmək amalıyla xidmət edirik. Bu, bizim təkcə hərbi vəzifəmiz deyil, həm də vətəndaşlıq borcumuzdur. Əsgərlərim həm yaxşı vətəndaşdı, həm də hərbi vəzifələrini yüksək səviyyədə yerinə yetirən əsgərdi. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, nəinki bölgədə, dünya miqyasında ən güclü ordular sırasında olan Azərbaycan Ordusunun zabiti kimi bundan qürur duyuram. Mən də, əsgərlərim də deyirik ki, ömür Vətən üçündü!..

**Baş leytenant**
**Emin MEHDİYEV,**
**"N" hərbi hissəsi,**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

# Müdafiə Nazirliyinin rəhbər heyətinin toplanışı keçirilib

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi fəaliyyət planına əsasən, nazirliyin bütün rəhbər heyətinin iştirakı ilə toplanış keçirilib.*



Müdafiə nazirinin müavinləri, qoşun növləri və qismləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, birlik və birləşmə komandirləri, qərargah rəisləri və digər məsul zabitlərin iştirak etdiyi toplanışdan əvvəl şəxsi heyətin sıra baxışı keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, toplanışa qatılan heyət Təlim və Tədris Mərkəzində, çöl-səhra şəraitində təşkil olunan təlim nöqtələrində nəzəri və praktiki məşğələlərdə iştirak ediblər.

Şəxsi heyətin fiziki və sıra hazırlığı yoxlanılıb, iştirakçılardan hərbi nizamnamələr, rəhbəredici və digər normativ hüquqi sənədlər üzrə məqbullar qəbul edilib.

Çöl-səhra şəraitində təşkil olunmuş təlim sahələrində atıcı silahlardan atışlar icra olunub.

## "Ermənistan Azərbaycana qarşı ekoloji soyqırımı törədir"

Azərbaycanın Los-Ancelesdəki baş konsulu, Los-Anceles konsulluq korpusunun duayeni Nəsimi Ağayev Los-Ancelesdə fəaliyyət göstərən "ECONEWS" teleradio şirkətinə geniş müsahibə verib.

Ermənistanın Azərbaycana qarşı təcavüzü haqqında məlumat verən baş konsul ölkəmizin işğal olunmuş ərazilərində Ermənistanın ekoloji terror törətməkdə davam etdiyini bildirib. N.Ağayev Ermənistanın məişət tullantılarını, sənaye müəssisələrinin çirkab sularını və radioaktiv maddələri Araz çayına axıdaraq Azərbaycan ərazisinə ötürməklə ölkəmizə qarşı ekoloji soyqırımı həyata keçirdiyini diqqətə çatdırıb.

# Azərbaycan-Türkiyə 11-ci Yüksək Səviyyəli Hərbi Dialoq İclası keçirilib

*Dekabrın 18-də Ankarada Azərbaycan-Türkiyə 11-ci Yüksək Səviyyəli Hərbi Dialoq İclası öz işinə başlayıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə Azərbaycan nümayəndə heyəti Ankara şəhərindəki Heydər Əliyev parkını ziyarət edib. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi adından Ulu Öndərin abidəsi önünə əklil qoyulub. Nümayəndə heyəti, həmçinin Atatürk mavzoleyini də ziyarət edib. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi adından Atatürkün məzarı önünə əklil qoyulub.



Sonra nümayəndə heyətləri plenar açılış iclasında geniş tərkibdə iştirak ediblər. İclasda həmsədrlərin açılış nitqləri səsləndirilib və regional təhlükəsizlik mühitinin vəziyyətinə dair brifinqlər təqdim olunub.

Daha sonra iclas yardımçı işçi qruplarda davam edib.

İclasda Azərbaycan ilə Türkiyə arasında təhlükəsizlik, hərbi, hərbi-texniki, hərbi tibb, hərbi təhsil, hərbi sənaye və digər sahələrdə əməkdaşlığın hazırkı vəziyyəti, inkişaf perspektivləri, hər iki ölkənin orduları arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi məsələləri, eləcə də 2019-cu ildə qarşıda duran vəzifələrin yerinə yetirilməsi üçün əsas fəaliyyət istiqamətləri müzakirə edilib.

Hərbi dialoq çərçivəsində müzakirələrdə cari ildə görülmüş işlər təhlil edilərək 2019-cu il üçün fəaliyyət planı razılaşdırılıb.

Dekabrın 20-də Ankarada Azərbaycan-Türkiyə 11-ci Yüksək Səviyyəli Hərbi Dialoq İclası öz işini başa vurub.

Görüşün sonunda 11-ci Yüksək Səviyyəli Hərbi Dialoq İclasının yekunlarına dair, eləcə də "Azərbaycan Respublikası hökuməti ilə Türkiyə Respublikası hökuməti arasında hərbi tibb sahəsində təhsil və əməkdaşlıq haqqında" protokollar imzalanıb.

Qeyd edək ki, iclasın Azərbaycan tərəfindən həmsədri Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev, Türkiyə tərəfindən isə Baş Qərargahın ikinci rəisi korpus generalı Mətin Gürakdır.

Bu formatda növbəti 12-ci Yüksək Səviyyəli Hərbi Dialoq İclasının 2019-cu ilin sonunda Azərbaycanda keçirilməsi planlaşdırılır.

* * *



11-ci Yüksək Səviyyəli Hərbi Dialoq İclasında iştirak etmək üçün Türkiyədə səfərdə olan Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev Türkiyə Baş Qərargahının rəisi ordu generalı Yaşar Gülər ilə görüşüb.

Görüşdə tərəflər Azərbaycan ilə Türkiyə arasında təhlükəsizlik, hərbi, hərbi-texniki, hərbi tibb, hərbi təhsil və digər sahələrdə əməkdaşlığın cari vəziyyəti, inkişaf perspektivləri, həmçinin hər iki ölkənin orduları arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi məsələlərini müzakirə ediblər.

General-leytenant K.Vəliyev Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun və Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovun salamlarını Türkiyə Baş Qərargahının rəisi ordu generalı Y.Gülərə çatdırıb və səmimi qəbula görə ona təşəkkürünü bildirib.

# "NATO və Rusiya arasında danışıqlar üçün Bakı ən ideal yerdir"

*Avropa İttifaqı məsələlərini işıqlandıran nüfuzlu "EurActiv" xəbər portalı dekabrın 12-də Bakıda NATO Müttəfiq Qüvvələrinin Avropadakı Baş komandanı Körtis Skaparrotti ilə Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov arasında keçirilmiş görüş barədə "NATO və Rusiya arasında danışıqlar üçün Bakı ən ideal yerdir" adlı məqalə yayıb.*

Məqalədə bildirilir ki, Azərbaycanın paytaxtı 2018-ci il ərzində artıq ikinci dəfədir bu formatda görüşə ev sahibliyi edir. Prezident İlham Əliyev ilə görüşü zamanı NATO Müttəfiq Qüvvələrinin Avropadakı Baş komandanı Körtis Skaparrotti Bakının NATO-Rusiya formatında görüşün keçirilməsi üçün tam münasib məkan olduğunu deyib və Azərbaycanın artıq ikinci dəfədir belə bir tədbirə ev sahibliyi etməsinin əhəmiyyətini vurğulayıb.

Yazıda Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin görüşlə bağlı fikirlərinə də yer verilib: "Azərbaycan və ABŞ arasındakı strateji münasibətlər təhlükəsizlik, enerji və iqtisadi sahələrdə əməkdaşlığı əhatə edir. Azərbaycan "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində NATO-nun etibarlı və fəal tərəfdaşıdır, əməkdaşlığın gündəliyi geniş xarakter daşıyır. Azərbaycan Respublikası, xüsusilə Bakı şəhəri regionun "diplomatik paytaxtı" olaraq humanitar, dayanıqlı inkişaf, multikulturalizm, mədəniyyətlərarası və dinlərarası dialoq, enerji və digər məsələlərin müzakirəsi üçün beynəlxalq məkan olmaqla bərabər, qlobal təhlükəsizlik məsələlərinin müzakirə olunduğu strateji dialoq platforması rolunu da oynayır".

# Qəhrəmanlar unudulmur

*Azərbaycan üçün yaşamış igidlərimizi unutmuruq, unutmayacağıq. Onların qəhrəmanlığı gələcək nəsillərə örnəkdir. Hər birimizin bu örnək ömürlərə sonsuz ehtiramımız vardır. Azərbaycanın Milli Qəhrəmanı Qasım Qara oğlu Rzayev belə oğul olub, belə hərbçi olub, belə qəhrəman olub.*



O, 1970-ci ilin mayında Tovuz rayonunun Əlibəyli kəndində doğulmuşdur. Orta məktəbi də elə bu kənddə bitirmişdi. Sonradan sürücülük peşəsinə yiyələnir. 1988-ci ildə hərbi xidmətə çağırılan Qasım Ukrayna Respublikasında xidmət etmişdir. Bir neçə dəfə xidmətlərinə görə mükafatlandırılmışdır. Hərbi xidmətdən sonra 1990-cı ildə o, Tovuza geri dönür. Könüllü özünümüdafiə batalyonlarının birinə yazılır. Bir əsgər kimi Tovuzun Muncuqlu, Hacallı, Ağdam kəndlərinin müdafiəsində vuruşur. Ermənilər "Qan çanağı" adlanan ərazidən keçərək Qasımgillə döyüşürlər. Bu dəstə ermənilərin bir çoxunu və onlara məxsus bir PDM-i də məhv edir. Döyüşdən az sonra düşmənin əraziyə atdığı mərmilərdən biri düz Qasımın idarə etdiyi avtomobilin üzərinə düşür. Qasım 22 yaşında Vətən uğrunda şəhid olur. O, Əlibəyli kəndində torpağa tapşırılır. Ölümündən sonra ona "Azərbaycanın Milli Qəhrəmanı" adı verilir. Həmçinin hazırda Hacallı kənd orta məktəbi bu igidin adını daşıyır. Etibar Məmmədovun rejissorluğu ilə "Qasımın andı" filmi də çəkilmişdir.

Uşaqlıqda valideynlərim mənə Qasımın qəhrəmanlıqlarından danışardılar. Anam onun ölümünü görübmüş. Anam deyirdi ki, biz məktəbdən evə dönərkən bir partlayış eşitdik. Partlayışdan az sonra öyrəndik ki, Qasım şəhid olub.

Qəhrəmanlar ölümü gözə alaraq vuruşub, şəhid olublar. Buna görə də onların heç birini unutmaq olmaz. Onlar bizim qürur mənbəyimizdir.

**Hüsniyyə İDRİSOVA,**
**BSU-nun II kurs tələbəsi**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**21 dekabr 2018-ci il.**
Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub.

Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Qərvənd, Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*Nümunəvi xidmət*

# "Torpaqlarımızı azad edəcəyik!"

*Azərbaycan xalqının var olduğu bütün zamanlar boyu ən ali sərvəti istiqlalı və dövlət müstəqilliyi olub. Xalqın, millətin üzvü olan hər bir şəxs mənsub olduğu millətin, xalqın mənəvi dəyərlərini yaşatmalı, dövlətinin möhkəmlənməsində, ordu quruculuğunda əlindən gələni əsirgəməməlidir. Buna görə də bir amalla xidmət etməlidir: Torpaqlarımız işğaldan azad ediləcək.*



Müstəqilliyimizin təminatı isə güclü Azərbaycan Ordusunun var olmasından keçir. Nə bəxtiyarıq ki, xalqımız bu gün müstəqil dövlətə və güclü orduya sahibdir. Ancaq müasir orduya, qabaqcıl hərbi texnikaya, döyüş hazırlığına malik olmaqla da iş bitmir. Əsgərin mənəvi-psixoloji hazırlığı da ordunu güclü edən amillərdən biridir. Bu məqsədlə Müdafiə naziri general-polkovnik Zakir Həsənov başda olmaqla Müdafiə Nazirliyinin rəhbər heyəti daim bu məqamı diqqət mərkəzində saxlayır, şəxsi heyətin mənəvi-psixoloji durumunun yüksək olmasına çalışır.

Biləsuvar rayonunundan hərbi xidmətə çağırılan, şəxsi heyətə nümunə olan əsgər Rusif Şabıyev də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən dəyərləndirilən və 10 günlük məzuniyyətlə mükafatlandırılan əsgərlərdəndir.

Əsgər Rusif Şabıyev söhbət zamanı bildirdi ki, Müdafiə nazirinin bizimlə görüşməsini mən də unutmaram. Mənə 10 günlük məzuniyyət verməsini hərbi xidmətimə verilən dəyər biliרəm: "Bu duyğuları bütün şəxsi heyətin, eləcə də hərbi hissəmizin rəhbərliyinin qarşısında yaşamaq necə də xoş idi! Yaşadığım könül xoşluğunu, keçirdiyim ruh yüksəkliyini, bu sevincli anları bütün hərbi qulluqçulara, bütün dostlarıma arzulayıram."

Həmsöhbətim hesab edir ki, qazanılan uğurun əldə edilməsi üçün hər hansı universal formul mövcud olmasa da, müəyyən tələblər mövcuddur: "Uğur əldə ediləndə, ilk növbədə nəticəyə baxılır. Ancaq bu pilləyə necə gəlib çatması barədə düşünülmür. Qazanılan uğur komandirlərimin gərgin zəhmətinin nəticəsidir. Bundan başqa, uğur əldə etməyin, irəli getməyin sirri təmkinli olmaqdan, öz peşənə dərindən yiyələnməkdən, elmli və təhsilli olmaqdan, bir sözlə peşəkar hərbçi olmaqdan keçir."

Əsgər Rusif Şabıyev onu da bildirdi ki, Vətənə xidmət hər bir kəsin borcudur. "Bizim borcumuz isə nizamnamə çərçivəsində hərəkət etmək, peşəkar hərbi qulluqçu kimi formalaşmaqdı. Vətəni sevmək, onu qorumaq, onun uğrunda canını fəda etmək mənim vəzifə borcumdur. Buna görə də hərbi peşəyə dərindən yiyələnməyə, keçirilən məşğələlərdə, dərslərdə təcrübəli zabitlərimizin bilik və təcrübəsindən yararlanmağa çalışıram. Təcrübəli, səriştəli əsgər döyüş meydanını qalib tərk edər".

Torpaqlarımızın işğal altında olduğu bir vaxtda bilikli və cəsur hərbçilərimizin olduğunu qürurla bildirən həmsöhbətim dedi ki, onlar torpaqlarımızı işğaldan azad edəcək: "Vətənimizin hər qarış torpağı bizim üçün əzizdir. Havası, suyu, təbiəti və gözəlliyi ilə hər kəsin zövqünü oxşayan, mənəvi olaraq bizi yaşadan Qarabağımız bu gün bizim yolumuzu səbirsizliklə gözləyir. Gələcəyə - Böyük Qələbəyə çatmaq üçün Ali Baş Komandanımızın, Müdafiə nazirimizin əmrlərini gözləyirik. Minlərlə qəhrəmanlıq nümunələri olan bir xalqın ordusunun əsgəri olaraq Mübarizlərimizin, Fəridlərimizin, Çingizlərimizin... döyüş yolunu təkrar etmək, hünərlər göstərmək, Qarabağımızı azad etmək arzusu ilə yaşayırıq".

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# İctimaiyyət nümayəndələri hərbi hissənin qonağı olublar

*Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ərəfəsində bir qrup ictimaiyyət nümayəndələri "N" hərbi hissəsinin qonağı olub.*



Kapital bankın idarə heyətinin sədri Rövşən Allahverdiyev və rəhbərlik etdiyi kollektiv şəhid ailələri, müharibə veteranları, əsgərlərlə görüşüb və bayram hədiyyələri təqdim ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, qonaqlar, həmçinin hərbi qulluqçuların xidmət və sosial məişət şəraiti ilə tanış olublar.

Görüşdə çıxış edənlər həmrəylik gününün yaranma tarixi, əhəmiyyəti, respublikamızın inkişafının möhkəm təməlini qoyan ümummilli liderimiz Heydər Əliyevin əvəzsiz xidmətləri və Prezident İlham Əliyevin fəaliyyəti nəticəsində bütün sahələrdə tərəqqinin təmin edilməsindən, eləcə də ordu quruculuğu sahəsində qazandığımız uğurlardan danışıblar.



Şəxsi heyət üçün təşkil olunan konsert proqramından sonra qonaqlar əsgərlərlə birlikdə nahar ediblər.

Sonda xatirə şəkli çəkdirilib.

Mehdi Hüseynzadə - 100

# "Mehdilər, Həzilər, ..., Mübarizlər tarix yazacaq!"



...Axı Mehdi müharibələr üçün doğulmamışdı. Onu Allah incə ruhlu, şair təbiətli bir insan olaraq yaratmışdı. Rənglərin sirli dünyasının seyrindən doymazdı. İncə musiqi duyumu ilə yaşıdlarından çox fərqlənirdi. Tar ifa etməyi bacarırdı, beş xarici dil bilirdi. Bu onun xüsusi istedadı idi. Müharibə başlayanda 23 yaşlı gənc idi Mehdi. Onun gerçəkləşəsi arzularını saymaqla bitirmək olmur... Aqillər deyib ki, müharibənin ilk qurbanı həqiqətdir.

Bu düşüncələrlə əfsanəvi kəşfiyyatçı Mixaylonun ailə üzvü Hənifə həkimin evinə doğru irəliləyirəm. Qapının zənginə özü çıxır.

- Hənifə Əliqulu oğlu Əlizadə.
- Mehdi Aslan oğlu Əzizbəyov.

Onlar özlərini belə təqdim etdilər... Hər ikisi şan-şöhrəti ilə Azərbaycanın hərb tarixinə qızıl səhifələr yazmış Sovet İttifaqı Qəhrəmanı Mehdi Hənifə oğlu Hüseynzadənin bacıları Bikəxanım və Hüriyyət xanımın övladıdır. Hənifə Əlizadə və Mehdi Əzizbəyov ixtisasca həkimdirlər.

- Biriniz babanız Hənifənin, digəriniz isə dayınız Mehdinin adını daşıyırsınız. Yəqin, bu adlar ananızın seçimidir, - deyə onlarla söhbətə körpü yaratmaq istəyirəm.

- Hər ikimiz yaşadığımız bir ömür boyu nəsil-nəcabətimizə, soykökümüzə dərindən bağlanaraq daşıdığımız adın şərəfini qoruduq, - deyə Hənifə həkim təmkinini pozmadan bildirdi.

...Diqqətimi divardan asılmış rəsmlər çəkdi. Onlar mahir rəssam fırçası ilə ərsəyə gələn qiymətli rəsm əsərləridir. Mehdinin qəhrəmanlığına həsr olunmuş çoxlu sayda kitablar, tarixlərdən boylanan fotoşəkillər stolun üzərinə səliqə ilə düzülüb. Bir də xüsusi çərçivədə divardan asılmış bir yazı diqqətimi çəkir: "Bu bir parça kağızımı möhkəm saxla. Bir zaman işlədiyin muzey onu sənin nəvə-nəticələrindən baha qiymətə alar. Çünki bu günün heçi olan mən gələcəyin klassik sənətkarı olmaq arzusundayam. Mehdi,1938".

Fikirləşirəm, amansız müharibə istedadlı bir gəncin nə qədər gülümsəyən arzularını yarımçıq qoydu...

Hənifə həkimin böyük qardaşı Xalq artisti Aqşin Əlizadənin vaxtilə dayısı haqqında yazdığı xatirələrinin əlyazması da qarşımızdadır. O yazır ki, "dayım Mehdi Leninqradda oxuyanda mən körpə uşaq olmuşam. Ancaq məktublarında mənə də hər dəfə salam söyləyirdi və kiçik bir şəklinin də arxasını yazıb mənim adıma xatirə olaraq göndərmişdi. 60 ildir ki, o şəkli mən cib dəftərimin arasında daim yanımda gəzdirirəm. Azərbaycanın və Şərqin, ümumilikdə dünya azadlıq hərəkatının tarixində IX əsrdə yaşayıb mübarizə aparmış yenilməz qəhrəman Babəkin müstəsna yeri var. Mən xalqımın o qəhrəman oğlu haqqında bəstələdiyim baletimi elə onun kimi igid olan dayım Mehdi Hüseynzadəyə ithaf etmişəm."

Hənifə həkim söhbətə başlamazdan öncə qəhrəmanın ailə üzvləri adından Mehdi Hüseynzadənin anadan olmasının 100 illik yubileyinin respublikamızda geniş qeyd olunması ilə bağlı imzalanan sərəncama görə ölkə Prezidentinə və eyni zamanda sərəncamdan irəli gələn orduda silsilə tədbirlərin təşkilinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını ifadə etdi.

Hənifə həkimin dediklərindən: "Əslən azərbaycanlı Şahin Senariya adlı tarixçi, həm də ədəbiyyatşünas alim var. 20 ildən çoxdur ki, Fransada yaşayır. O, İkinci Dünya müharibəsinə dair, xüsusilə də partizanlar haqqında bir neçə kitabın müəllifidir. Fransada nəşriyyatlardan biri ona sifariş verib ki, Mehdi Hüseynzadə haqqında kitab yazmalısan. Və eyni zamanda film çəkilməlidir. O evimizə gəldi və dedi ki, bu yüksək səviyyəli bir sifarişdir. Dayımla bağlı çox maraqlı məlumatlar topladı. Mehdinin şəkillərinin surətini və rəsmlərinin video görüntüsünü onlara təqdim etdik. Azərbaycanlı qəhrəman haqqında Fransa kimi bir dövlətdə kitabın və filmin araya-ərsəyə gəlməsi, mən deyərdim ki, tarixi bir hadisədir. Qoy fransız xalqı bilsin ki, Azərbaycanın hər zaman qəhrəman, igid oğulları olub. Xalqımızın Cavanşir, Babək, Mehdi, Mübariz kimi qəhrəman oğulları bu gün də var. Mehdi Hüseynzadənin qəhrəmanlığı barədə italyanlar, yuqoslavlar çox yazıblar. Onlar bu gün də Mehdinin İtaliya və Yuqoslaviya müqavimət hərəkatında faşistlərə qarşı göstərdiyi igidliklərdən danışırlar. Slovenlər də, italyanlar da Mehdini öz qəhrəmanları hesab edirlər. Mehdi üç xalqın qəhrəman oğludur. Triyestdə bir bina var. Hazırda orada milli konservatoriya yerləşir. İtalyanlar indiyədək həmin binaya Mixaylo partladan ev deyirlər. Mehdi kimi Azərbaycanımızın yüzlərlə oğlu bizim xoşbəxt, işıqlı, firavan gələcəyimiz üçün canlarından keçdilər. Xalqımız illər keçsə də, belə qəhrəman, igid oğullarını heç zaman unutmur, xatirəsini əziz tutur."

O, hələ uşaq ikən şahidi olduğu anası Bikəxanımın qardaşının ölüm xəbərini eşitdikdən sonra yaşadığı ağrı-acıları kövrək hisslərlə yadına salıb danışdı: "Adətən evə qonaq gələndə biz uşaqlar otağımıza çəkilərdik. Kiçik olsam da, dayım barədə gedən söhbətləri eşidirdim. Dayımın komandiri olmuş Cavad Həkimli, ona "Cavad dayı" deyərdik, bizə gəlib Mehdi haqqında danışanda anam da, xalam da göz yaşlarını saxlaya bilməyib hönkürtü ilə ağlayırdılar. Mən bütün bunların şahidiyəm. Bir məqamı diqqətinizə çatdırım: Anam heç vaxt "Uzaq sahillərdə" filminə sonacan baxmadı. O, görmək istəmirdi ki, qardaşı necə həlak olub və onu faşistlər necə öldürüb. Onun ölüm səhnəsinin kino olduğunu bilsə də, görmək istəmirdi. Anam 1989-cu ildə dünyasını dəyişdikdən sonra mən o filmə sonacan baxmışam. Sizə onu da deyim ki, "Uzaq sahillərdə" filmi əvvəlcə teatr quruluşunda səhnələşdirilib. İlk dəfə Azərbaycan Dövlət Dram Teatrında tamaşa gedən zaman biz lojada əyləşib tamaşaya baxırdıq. Mehdi obrazında böyük sənətkarımız Möhsün Sənani çıxış edirdi. Heç vaxt yadımdan çıxmaz. O zaman da anam Aqşinin və mənim əlimdən tutub teatrdan çıxardı. Anam bizim də dayımızın ölüm səhnəsini görməyimizi heç vaxt istəmirdi. Onun gözündə dayımız ölməmişdi, sağ idi..."

Hənifə həkim söhbətində dayısının komandiri olmuş Cavad Həkimlinin söylədiklərini də xatırladı: "Cavad dayı deyərdi ki, Mehdinin göstərdiyi qəhrəmanlıqların yüzdə bir hissəsini biz bilirik. Əslində, o elə böyük qəhrəmanlıqlar göstərib ki, heç zaman açıqlanmayacaq. Kəşfiyyatda və əks-kəşfiyyatda elə sirlər var ki, onlar 50 il də, 100 il də keçsə açıqlanmamalıdır. Kəşfiyyatçının taleyi belədir. Bəzən onların ən möhtəşəm igidlikləri də geniş kütlələrə bəlli olmur. Məgər biz Sovet İttifaqı Qəhrəmanı əfsanəvi kəşfiyyatçı Rixard Zorgenin bütün qəhrəmanlıqlarını bilirik? Əlbəttə, yox. Kəşfiyyatçılar şöhrət üçün deyil, nəticədən ötrü çalışanlardır. İndi mən o deyilənləri analiz edərək başa düşürəm ki, Mehdi Hüseynzadənin də göstərdiyi qəhrəmanlıqların bir hissəsi heç zaman açılmayacaq. İkinci Dünya müharibəsində Sovet ordusuna rəhbərlik etmiş, faşizm üzərində qələbənin qazanılmasında böyük xidmətləri olan marşal G.K.Jukov "Xatirələr və düşüncələr" adlı kitabında müharibə dövrünün bir çox naməlum sirlərini açıb adlar sadalayarkən "və sairə" yazmadan düşmən arxasında gizli fəaliyyət göstərmiş, mərkəzə qiymətli məlumatlar ötürmüş konkret olaraq 19 nəfərin adını qeyd edirdi. Onlardan biri də mənim dayım, millətin fəxri olan azərbaycanlı Mehdi Hüseynzadədir. Xüsusilə qeyd etməliyəm ki, Mehdi Hüseynzadəyə Sovet İttifaqı Qəhrəmanı adının verilməsində o zaman milli təhlükəsizlik orqanlarında çalışan ümummilli liderimiz Heydər Əliyevin misilsiz xidmətləri olub. Xalqımız qəhrəman oğlunun həqiqi adının özünə qaytarılmasına görə Ulu Öndərə minnətdardır. Qardaşım Aqşin 70-ci illərin sonlarında dövlət xəttiylə Anqolada olarkən keçmiş ittifaqın oradakı səfirliyində çalışan milli təhlükəsizlik generalı ona yaxınlaşıb dayısı ilə bir dəstədə döyüşdüyünü deyir. "Sənin dayın əsl qəhrəmandır. Onun qəhrəmanlığını saymaqla qurtarmaq olmaz". Həmin general Mehdinin çox hazırlıqlı bir kəşfiyyatçı olmasından danışıb. İki nəfər Sovet İttifaqı Qəhrəmanının Moskvadan bizim evə gəldiyini də yaxşı xatırlayıram."



Qəhrəmanın bacısı oğlu anasının deməsinə görə, Mehdinin ortaboylu, qarabuğdayı, sağlam bədən quruluşlu, həm də çox zarafatcıl bir gənc olduğunu söylədi: "O, vaxtilə "Nizami" metrosunun yanında yerləşən, əvvəllər Razvezdnoy küçəsi 17 adlandırılan və 1920-ci illərdə yeni yaradılan milis idarəsinin həyəti deyilən birmərtəbəli kiçik evlərdən ibarət məhəllədə anadan olub. Babam Hənifə Hüseynzadə bu illərdə həmin milis idarəsinin ilk rəisi işləyib. Sonra babamgil hazırda Mehdinin barelyefi vurulan binaya köçüblər. Anamgilin ailəsi orada yaşayıb. Mehdi oradan məktəbə, instituta və cəbhəyə gedib... Dayımı böyük qardaşım Aqşin kiçik yaşlarında gördüyünə görə daha yaxşı xatırlayırdı. O danışırdı ki, bir dayı kimi çox mehriban idi, onun əlindən tutub tez-tez bulvara aparармış. Cəbhədən anamıza məktub göndərəndə də birinci onu soruşarmış. Sonra digər ailə üzvlərindən hal-əhval tutarmış. Bacım Gülarə danışardı ki, müharibə təzə qurtarmışdı. O, bir gün küçədə oynayarkən hərbi geyimli bir kişinin onların qapılarına yaxınlaşdığını görür. Və ondan soruşur ki, sən Mehdi dayımsan? O da cavab verir ki, mən Mehdi deyiləm, onun dostu Cavadam. Cavad dayı anamgillə görüşüb söhbət etdikdən sonra evimizdən möhkəm ağlamaq səsi gəlirdi. Anamgilin ünvanına Voroşilovun imzası ilə Mehdinin itkin düşməsi barədə məktub gəlmişdi. Həmin sənəd digər sənədlərlə birlikdə Milli Azərbaycan Tarix Muzeyində saxlanılır.

Mehdi Hüseynzadənin kiçik bacısı Hüriyyət xanımın oğlu Mehdi Əzizbəyovun dediklərindən:

"Bu gün nəslimizin iki nümayəndəsi dayımın adını daşıyır. Mən və Hənifənin oğlu. Anam danışardı ki, dayım uşaqlıqda çox dəcəl olub. Mehdi çox erkən yaşlarında həm atasını, həm də anasını itirib. O, atasının bacısı kərbəlayi Masənəm xanımın himayəsində böyüyüb. Mehdi o qədər dəcəl olub ki, Masənəm bibisi həmişə onun arxasınca gəzirmiş ki, birdən yıxılar, ömürlük zədə alar, çox qoruyurmuş onu. O qədər qorunmasına baxmayaraq iki dəfə yıxılır və qolunu sındırır. Belə uşaqlığı keçib Mehdinin...

Müharbədən sonra ilk dəfə dayımın ölüm xəbərini də, ona məxsus əşyaları da onun komandiri Cavad Həkimli gətirib. Mehdinin ölümünə heç kim inanmırmış. Ailə bu xəbərdən çox sarsılıb. Anamın ömrünün sonuna qədər üzü gülmədi. Dayımın döyüş yoldaşları Rza Orucov, Ənvər Məmmədov, tanınmış Xalq rəssamı Cabbar Quliyev bizə onun vətənpərvərliyindən, qəhrəmanlıqlarından, insanpərvərliyindən çox danışardılar."

Mehdi Əzizbəyov Sloveniyada olarkən dayısı barədə çoxlu maraqlı hadisələr eşitdiyindən danışdı: "Mehdi dəfn olunduqdan sonra onun məzarı üzərinə çoxlu gül-çiçək dəstələri düzüb, əkillər qoyurdular. Bir həftə keçdikdən sonra faşistlər artıq Sloveniyanı tərk etməyə məcbur oldular. Çünki hitlerçilər Avropada da məğlub olduqlarını başa düşərək geri çəkilirdilər. Məzarın yanından keçən alman qoşun hissələrinin yüksək rütbəli zabiti maşından düşüb qəsəbənin bələdiyyə sədrindən "Bu kimin məzarıdır?", - deyə soruşur. Bələdiyyə sədri də cavab verir ki, məşhur Mixaylonun məzarıdır. Alman ordusunun zabiti bütün döyüşçüləri sıraya düzərək "Atəş" əmrini verir və onlar məzarın önündən baş əyərək keçib gedirlər. Alman zabiti bələdiyyə sədrinə tapşırır ki, Mixaylo çoxlu sayda hitlerçini məhv etməsinə baxmayaraq, o həqiqətən qorxubilməz bir qəhrəmandır. Onun məzarını qoruyun. 50-ci illərdə İtaliyada neft emalı zavodunu yenidən inşa etmək istəyirlər. Böyük bir ərazidə yerləşən zavodun necə sökülməsi barədə fikirləşirlər. Zavodun sökülməsinə və dağıdılmasına çoxlu sayda vəsait tələb olunurmuş. Sonradan italyanlar Mixaylo üsulu ilə partlayıcı qurğular vasitəsilə zavodu yerlə-yeksan edib yerində daha müasirini tikirlər."

Mehdi söhbətində anası Hüriyyət xanımın dayısı barədə danışdığı hadisəni maraqla nəql etdi: "Anam bir gün görür ki, Mehdi oturub stolun qarşısında nə isə oxuyur, sonra gözlərini bağlayıb ağ vərəqə iynə batırır. O soruşub ki, nə edirsən? Cavab verib ki, bu gözdən əlillərin, yəni, korların əlifbasıdır. Birdən lazım olar. Ona görə öyrənirəm. Belə nəticəyə gəlmək olar ki, həqiqətən də, o, gələcəyə hazırlıq görürdü. Mehdi istedadlı rəssam və gözəl şair idi. Mən həmişə deyirəm ki, əgər o yaşasaydı, ya tanınmış rəssam, ya tanınmış şair, ya da tanınmış yazıçı və ictimai xadim olardı. Deyirlər ki, onda gözəl natiqlik məharəti var imiş. Tanınmış rəssam Cabbar Quliyev danışardı ki, ona rəsm çəkməyi Mehdi öyrədib. Mehdigil üç dost olublar: Məmmədağa Tərlanov, Mürsəl Nəcəfov. Dayımın yolu yarıda qırılsa da, Məmmədağa və Mürsəl məşhur sənətşünas, professor oldular."

Onu da xatırlatmaq yerinə düşərdi ki, Hənifə həkim ermənilərin torpaqlarımıza qarşı apardıqları Qarabağ müharibəsinin ilk illərində 1993-cü ildə Beyləqan, Füzuli və Ağdam istiqamətlərində yerləşən hospitallarda ağır yaralılara yardım göstərib və o, dayısının şanlı döyüş yolunu beləcə davam etdirib.

Sonda Hənifə həkimin dedikləri sanki düşmənə bir mesaj idi... "Xalqımızın Mübariz kimi oğulları var. Azərbaycanda Mübarizin davamçıları minlərlədir. Belə Mehdi ürəkli qəhrəman oğullarımızın sayəsində biz Qarabağımızda, Şuşamızda qələbə paradları keçirəcəyik. Mehdilər, Həzilər, ..., Mübarizlər tarix yazacaq! Ali Baş Komandanın əmri olarsa, bu gün mən də Azərbaycan Ordusunun peşəkar, vətənpərvər zabit və əsgərləri sırasında torpaqlarımızın azadlığı uğrunda döyüşlərə getməyə hazıram. Qələbə bizim olacaq!"

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**

**1. Azərbaycan Respublikası rəhbərliyinin ölkənin müdafiə qüdrətinin yüksəldilməsi istiqamətindəki fəaliyyəti.**

**2. Hərbi hissə və birləşmələrin əsas vəzifələri.**

**Mövzu:** Azərbaycan Respublikası rəhbərliyinin ölkənin müdafiə qüdrətinin yüksəldilməsi istiqamətindəki fəaliyyəti. Hərbi hissə və birləşmələrin əsas vəzifələri.

*Azərbaycan Respublikası rəhbərliyinin ölkənin müdafiə qüdrətinin yüksəldilməsi istiqamətindəki fəaliyyəti*

Azərbaycan xalqının formalaşması dahi, uzaqgörən övladlarının ideyalarının və əməllərinin bilavasitə nəticəsidir. Azərbaycanın dövlətçilik ənənələri, elmi, mədəniyyəti, incəsənəti onların təfəkkürünün, qəhrəmanlıqlarının, əməyinin və yaradıcılığının məhsuludur. Məhz bunların sayəsində ölkəmiz dünya sivilizasiyasına özünün layiqli töhfələrini verib, dövlətçiliyini yaradaraq qoruyub saxlayıb, müasir dünyanın bir hissəsinə çevrilib. Artıq Azərbaycan Respublikası dünya dövlətləri arasında öz layiqli yerini tutur, inkişaf etmiş dövlətlər sırasına qoşulmaq yolunda böyük inam və qətiyyətlə irəliləyir. Müstəqil Azərbaycan Respublikasının bu yolda inam və qətiyyətlə irəliləməsinin səbəbkarı ümummilli lider Heydər Əliyevdir. Müasir müstəqil dövlətimizin memarı və qurucusu olan ulu öndər Heydər Əliyev həm də qüdrətli Azərbaycan Ordusunun yaradıcısıdır.

Qarşısına qoyulan hər hansı tapşırığı yüksək səviyyədə yerinə yetirmək iqtidarına malik Azərbaycan Ordusu bu gün NATO standartlarına cavab verən səviyyədə formalaşmışdır. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu ümummilli lider Heydər Əliyevin başladığı və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində gündən-günə daha da möhkəmlənir, döyüş qabiliyyətini artırır. Azərbaycan beynəlxalq aləmdə güclü iqtisadiyyata malik bir ölkə kimi tanınmaqla yanaşı, həm də NATO standartlarına uyğunlaşmış modern bir ordusunun olması ilə də diqqəti cəlb edir. Ulu Öndərin ideyalarını layiqincə yerinə yetirərək ordu quruculuğu sahəsində öz səylərini daha da artıran Ali Baş Komandan Azərbaycan Silahlı Qüvvələrinin müasir hərbi texnika ilə təchiz edilməsinə, möhkəm nizam-intizam, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordu yaradılmasına nail olmuşdur. Ordu quruculuğunda mühüm rol oynayan kadr hazırlığı da ölkə rəhbərliyinin daim diqqət mərkəzindədir. Bu gün Azərbaycanda Silahlı Qüvvələrin Hərbi Akademiyası, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzi, Cəmşid Naxçıvanski adına Hərbi Lisey və Naxçıvan Muxtar Respublikasında Heydər Əliyev adına Hərbi Lisey fəaliyyət göstərir ki, bunun da ölkəmizin müdafiə qüdrətinin artırılmasında xüsusi rolu vardır. Eyni zamanda hərbçilərimiz bir sıra vacib hərbi ixtisaslar üzrə təhsil almaq üçün Türkiyə, Rusiya, Ukrayna, Pakistan, Çin və digər ölkələrə göndərilir. Azərbaycan hərbçiləri NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində təşkil olunan müxtəlif ixtisasartırma və təlim kurslarında da yaxından iştirak edirlər. Azərbaycanın NATO ilə əlaqələri artıq "Fərdi Tərəfdaşlığın Fəaliyyət Planı" çərçivəsində inkişaf edir. Bu isə ölkəmizdə ordu quruculuğu prosesində növbəti nailiyyətlərin qazanılması üçün möhkəm təməl deməkdir.

Son illərdə Azərbaycan rəhbərliyi belə bir düsturu özünün əsas fəaliyyət prinsipinə çevirib ki, hər bir ölkənin uğurunu, inkişafını müəyyən edən amillər içərisində iqtisadi potensial və güclü ordunun mövcudluğu ön plandadır. Müasir səviyyədə qurulan ordu həm müstəqilliyin möhkəmlənməsində, həm də ölkənin bölgədə geopolitik güc mərkəzinə çevrilməsində önəmli rol oynayır.

Təbii ki, Azərbaycan hərbi potensialını genişləndirmək üçün özünün sürətlə artan iqtisadi imkanlarından hərtərəfli şəkildə bəhrələnməlidir və bu iş lazımi səviyyədə həyata keçirilməkdədir. Ən inkarçı mövqedə dayanan qüvvələr və fərdlər də artıq etiraf edirlər ki, sabitlik, dinamik inkişaf və güclü ordu quruculuğu müasir Azərbaycan üçün əsas xarakterik cəhətlərdir və bu cəhətlər bir-birilə sıx bağlıdır. Güclü iqtisadi inkişaf, gəlirlərin durmadan çoxalması və hərbi xərclərin ilbəil artması ilə bağlı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev bildirmişdir: "Hərbi xərclərin artırılması və büdcə xərclərində birinci yeri tutması dövlət siyasətimizin təzahürü, bizim prioritetimizdir. Son illər ərzində hərbi xərclərimiz 20 dəfədən çox artmışdır və bizdə orduya, Silahlı Qüvvələrə ayrılmış xərclər Ermənistanın bütün dövlət büdcəsindən təxminən 2 dəfə çoxdur. Ən müasir silah-sursat alınır və bu silahların, texnikaların bir hissəsi ictimaiyyətə nümayiş etdirilmişdir. Bu gün daha çox yüksək dəqiqliyə və böyük dağıdıcı qüvvəyə malik olan silahlar üstünlük təşkil edir. Bu silahları biz alırıq və alacağıq. Eyni zamanda, Azərbaycanda son illərdə yerli istehsal da təşkil edilibdir. Bu günə qədər Müdafiə Sənayesi Nazirliyinin xətti ilə 900 adda hərbi təyinatlı silah-sursat istehsal olunub və bu proses davam etdirilir. Gələcəkdə biz sursatlarla, texnika ilə özümüzü tam şəkildə təmin etməliyik. Eyni zamanda, ən müasir müxtəlif texnikalar alınır və müasirləşmə prosesi daim aparılır. Görülən bütün bu işlərlə yanaşı, Azərbaycanda hərbi sənaye də çox sürətlə inkişaf edir. Bu sahəyə də böyük vəsait ayrılır, diqqət göstərilir. Son illər ərzində çoxsaylı zavodlar yaradılıbdır. Azərbaycanda ən müasir texnika istehsal olunur. Gələcəkdə bizim bu sahədə planlarımız çox genişdir və böyükdür. İstəyirik ki, bizə lazım olan hərbi sursat və texnika maksimum dərəcədə Azərbaycanda istehsal olunsun. Beləliklə, biz idxaldan da asılılığımızı azaldacağıq. Baxmayaraq ki, silah-sursatın alınması ilə əlaqədar qarşımızda heç bir problem yoxdur, bu proses davam edir və edəcəkdir".

Ermənistan tərəfi müxtəlif yollarla, hətta öz ölkəsində terror törətməklə danışıqlar prosesini dəfələrlə pozmuşdur. Buna baxmayaraq, biz daim konstruktivlik nümayiş etdirərək çalışmışıq ki, məsələ öz həllini sülh yolu ilə tapsın. Məsələ sülh yolu ilə həll olunsun və beləliklə, bölgədə sülh, əməkdaşlıq yaransın. O da həqiqətdir və biz dəfələrlə bunu demişik, bu gün həyat bizim dediyimizi təsdiq edir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həll olunmadan bölgədə heç bir başqa məsələ öz həllini tapa bilməz. Ona görə yox ki, Azərbaycan buna etiraz edəcəkdir, biz öz milli maraqlarımızı bütün vasitələrlə müdafiə edirik, edəcəyik və bu sahədə uğurlara nail olmuşuq, sadəcə olaraq, ona görə ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bölgədə gedən proseslərə ən ciddi mənfi təsir edən amildir. Bu gün Azərbaycan bölgədə o nadir ölkələrdəndir ki, öz hesabına yaşayır və gündən-günə daha da yaxşı yaşayır. Bizim maliyyə imkanlarımız genişlənir və heç kimin yardımından asılı deyilik. Belə olan halda gələcəkdə də, Ermənistan ilə Azərbaycan arasında iqtisadi sahədə və ordu quruculuğunda-ki fərq daha da böyüyəcəkdir. Azərbaycanda əhalinin sayı ildən-ilə artdığı halda, Ermənistanda isə demoqrafik vəziyyət ildən-ilə pisləşir. Həm təbii azalma müşahidə olunur, köçüb gedənlərin sayı artır, hətta təmas xəttində belə canlı qüvvə çatışmır. Canlı qüvvələrinin Azərbaycanda olan insani potensialla müqayisə oluna bilməzliyini də nəzərə alsaq, üstünlüyün bizim tərəfimizdə olmasını heç kim inkar edə bilməz. Bizim maraqlarımızı heç kim kənara qoya bilməz və müəyyən mənada bizə qarşı təcridetmə planları baş tuta bilməz. Bundan sonra da milli maraqlarımızı bütün vasitələrlə müdafiə edəcəyik və bölgədə genişmiqyaslı əməkdaşlığın yaranması üçün səylərimizi göstərəcəyik. Bu əməkdaşlığın əsas amili Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Hələ ki, biz Ermənistan tərəfindən konstruktivlik görmürük. Onların vaxtuzatma cəhdləri davam edir və beynəlxalq vasitəçiləri aldatmaq cəhdləri davam edir. Çox təəssüf hissi ilə deyə bilərik ki, bəzi beynəlxalq qurumlar onların qeyri-səmimi davranışına göz yummaq istəyirlər. Ermənistan tərəfdən danışıqları pozmaq cəhdlərinə baxmayaraq qazandırılması bizi çox narahat edir, çünki beynəlxalq aləm öz qərarlarına heç olmasa hörmət etməlidir. Bu olanlara rəğmən Azərbaycanın bütün istiqamətlərdə atdığı addımlar inamlı və uğurludur.

*Hərbi hissə və birləşmələrin əsas vəzifələri*

Azərbaycanda ordu quruculuğu dövlət səviyyəsində, dövlətin yaxından iştirakı və qayğısı ilə aparılmaqdadır. Bu iş şəxsən Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi və nəzarəti altında həyata keçirilir. Dünyanın inkişaf etmiş ölkələrinin hərbi quruculuq təcrübəsi öyrənilir və müasir tələblərə cavab verən ordu yaratmaq istiqamətində işlər aparılır. Azərbaycan Ordusu yeni inkişaf mərhələsinə qədəm qoyub və yüksək hərbi intizamın saxlanılması üçün müvafiq tədbirlər görülərək islahatlar aparılır.

Bu gün iqtisadi yüksəlişi ilə diqqətləri özünə cəlb edən ölkəmiz yaradılmış qüdrətli ordusu ilə də hər bir azərbaycanlının qürur mənbəyinə çevrilib. Artıq bütün dünya Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın regionun ən qüdrətli ordusuna malik olduğunu təsdiq edir. Hərbi hissələrin müasir standartlara uyğun qurulması, şəxsi heyətin həyat və məişət şəraitinin yaxşılaşdırılması, müasir silahlarla təminatı istiqamətində görülən işlər sayəsində Azərbaycan Ordusu dünyanın ən güclü orduları ilə bir cərgədə öz layiqli yerini tutub.

Aprel döyüşləri və Naxçıvandakı uğurlu əməliyyatlar bir daha sübut edir ki, ordu quruculuğu istiqamətində aparılan dövlət siyasəti Azərbaycan Ordusunun möhkəmlənməsi və peşəkarlığına xidmət edir. Bu gün ordumuz istənilən vaxt işğal altındakı torpaqlarımızı azad etməyə qadirdir və komanda-qərargah hərb oyunları, taktiki təlimlər bunun əyani sübutudur. Bu gün ərazi bütövlüyümüzə qarşı yönəldilən hər hansı təcavüzə layiqli cavab verməyə malik və Vətənin maraqlarını şərəflə qoruyan Azərbaycan əsgəri vardır.

Azərbaycan Ordusunun hər bir hərbi qulluqçusu yaddan çıxarmamalıdır ki, bu gün ərazi bütövlüyümüz bərpa olunmayıb və torpaqlarımızın 20 faizi işğal altındadır. Müharibə vəziyyətinin davam etdiyini nəzərə alan Azərbaycan dövləti tamamilə haqlı olaraq öz ordusunun gücünü, hərbi kadrların peşəkarlıq səviyyəsini durmadan artırır və hərbi qüdrətini yüksəldir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev öz çıxışlarında dəfələrlə vurğulayıb ki, ordu quruculuğu, müdafiə potensialının möhkəmlənməsi və güclü ordunun yaranması dövlət üçün, hökumət üçün və hər bir vətəndaş üçün bir nömrəli vəzifədir. Biz bu istiqamətdə öz səylərimizi davam etdirərək, hər an öz doğma torpaqlarımızı işğalçı qüvvələrdən hərbi yolla azad etməyə hazır olmalıyıq. Ordumuzun gücünü artıran, hərbçilərimizin döyüş əhval-ruhiyyəsini yüksəldən əsas amillərdən biri də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin hərbi hissələrə, xüsusən cəbhə xəttinə ardıcıl səfərlər etməsidir. Ön xətdə xidmət edən əsgər və zabitlərimizlə hər görüşündə onlara sonsuz mübarizə əzmi aşılayan Ali Baş Komandan bununla da orduya diqqət və qayğısını əyani şəkildə nümayiş etdirir.

Dövlətimizin regionda müstəqil siyasət apara bilməsi üçün yüksək döyüş hazırlıqlı ordusu olmalıdır. Yaranmış hərbi-siyasi vəziyyət Azərbaycan Ordusunun hissə və birləşmələrinin daim döyüş hazırlığı, Azərbaycanın müstəqilliyinə və ərazi bütövlüyünə qarşı yönəldilən hər bir təcavüzə layiqli cavab verməyə qadir olmağı tələb edir. Bunun üçün isə, Azərbaycan Ordusunun qarşısında 2019-cu tədris ilində aşağıdakı əsas vəzifələr qoyulmuşdur:

- 2018-ci tədris ilində döyüş və mənəvi-psixoloji hazırlıqda əldə olunmuş nəticələrlə kifayətlənməmək, döyüş hazırlığını daha da təkmilləşdirmək, şəxsi heyətin döyüş ruhunu yüksək səviyyədə saxlamaq;
- birlik, birləşmə və hərbi hissələrdə hərbi intizamı daha da möhkəmləndirmək;
- şəxsi heyətin mənəvi-psixoloji hazırlığını yüksəltmək, onlarda Hərbi anda, Vətənə, xalqa sədaqət hissləri aşılamaq və gücləndirmək;
- hərbi kollektivləri dostluq və əsgəri yoldaşlıq ruhunda tərbiyə etmək.

Bu gün Azərbaycan Ordusu qarşısında torpaqlarımızı azad etmək üçün hər an hazır olmaq vəzifəsi durur. Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla özünü torpaqlarımızın azadlığı uğrunda gələcək döyüşlərə hazırlayır. Azərbaycan əsgəri bu döyüşlərdə tarixi qələbəni əldə etməklə nəyə qadir olduğunu bir daha sübut edəcəkdir.

**Qeyd:** *İctimai-siyasi hazırlıq qrupunun rəhbəri mövzunu şərh edərkən hərbi hissənin, öz bölməsinin 2018-ci tədris ilində döyüş və ictimai-siyasi hazırlığında qazandığı nəticələri bir daha dinləyicilərin nəzərinə çatdırmalı, 2019-cu tədris ilində hərbi hissənin, bölmənin qarşısına qoyulmuş tapşırıqların çatdırılmasına və izah edilməsinə xüsusi diqqət yetirməlidir.*

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

# Hərbi hissələrdə psixoloji işə dəstək tədbirləri keçirilir



*Müdafiə nazirinin təsdiq etdiyi təlimata əsasən, Şəxsi Heyət Baş İdarəsi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi tərəfindən hərbi hissələrdə psixoloji işin daha effektiv təşkili, eləcə də hərbi qulluqçuların psixoloji cəhətdən öyrənilməsi və maarifləndirilməsi işinə dəstək fəaliyyətləri həyata keçirilir.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hərbi hissələrin psixoloqları və şəxsi heyətlə iş üzrə zabitlər gənc əsgərlərin xidmətə adaptasiyası, fərdi-psixoloji xüsusiyyətlərinin öyrənilməsi ilə bağlı görüşlər keçirir, müvafiq tövsiyələr verir, yeni üsulların tətbiqinə dair maarifləndirmə işləri yerinə yetirirlər. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində müddətdən artıq həqiqi hərbi xidmətə könüllü daxil olmaq istəyən hərbi vəzifəlilərlə peşə-psixoloji seçim aparırlar.

Gənc əsgərlər və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə hərbi xidmətin xüsusiyyətləri mövzusunda söhbətlər aparılır, eləcə də müxtəlif mövzularda praktiki məşğələlər keçirilir.

# Müdafiə Nazirliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi hərbi hissələrdə birgə tədbirlər keçirib

*Müdafiə Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin 2018-ci il üçün birgə fəaliyyət planına əsasən hərbi birliklər və qoşun növlərində tədbirlər keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşlərdə çıxış edənlər milli-mənəvi dəyərlərimizin qorunmasında dövlətimiz tərəfindən görülən tədbirləri, gənclərimizin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasında dinin rolunu, radikalizmi doğuran səbəbləri və onunla mübarizə üsullarını qeyd edib, bu istiqamətdə aparılan maarifləndirmə işinin xüsusiyyətlərini şəxsi heyətin diqqətinə çatdırıblar.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi ilə hazırlanan "Şəhadət" sənədli filminə kütləvi baxışdan sonra hərbi qulluqçular filmdə qaldırılan məsələləri müzakirə edərək fikir və təkliflərini səsləndiriblər.

# 263 şəhidin 423 vərəsəsinə birdəfəlik ödəmənin verilməsi barədə qərar qəbul edilib

*Prezident İlham Əliyevin 2018-ci il 19 aprel tarixli 1 nömrəli Fərmanının icrası ilə əlaqədar şəhid hərbi qulluqçuların vərəsələrinin birdəfəlik ödəmə ilə təminatı sahəsində işlər davam etdirilir.*

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Fərmanın icrası ilə əlaqədar nazirlikdə fəaliyyət göstərən Komissiyanın növbəti iclasında vurğulanıb ki, şəhid hərbi qulluqçuların vərəsələrinin birdəfəlik ödəmə ilə təmin edilməsi dövlət başçısının mühüm sosial əhəmiyyət kəsb edən humanist bir addımı olmaqla, ölkəmizdə şəhid ailələrinin rifahının yaxşılaşdırılmasına göstərilən qayğının növbəti təzahürüdür.

İclasda şəhid hərbi qulluqçulardan daha 263-ü üzrə 423 vərəsəyə birdəfəlik ödəmənin verilməsi üçün qərar qəbul edilib. İndiyədək 2897 şəhid hərbi qulluqçu üzrə 3856 vərəsəyə birdəfəlik ödəmənin verilməsi barədə qərarlar qəbul olunub. Həmin qərarlar əsasında müvafiq vəsaitlərin ödənişi davam etdirilir.

# Bir qrup gənc hərbi dənizçilərin qonağı olub

*Müdafiə nazirinin təsdiq etdiyi illik fəaliyyət planına əsasən, Hərbi Dəniz Qüvvələrində mədəni-kütləvi tədbir keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ərəfəsində Qaradağ rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Dəniz Nəqliyyatı, Gəmiqayırma və Liman İşləri üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin nümayəndələri hərbi dənizçilərin qonağı olublar.

Görüş zamanı qonaqlar gəmilərdə hərbi qulluqçuların xidməti və sosial-məişət şəraiti ilə tanış olublar. Dənizçi zabitlər gəncləri maraqlandıran sualları da cavablandırıblar.

Sonda xatirə şəkilləri çəkdirilib.

# **Şəhid anası:** Birdəfəlik ödəmələrin verilməsi şəhid ailələrinə göstərilən diqqətin növbəti təzahürüdür

*Şəhid ailələrinə dövlətimiz tərəfindən daim yüksək qayğı göstərilir. Prezidentimizin Fərmanı ilə birdəfəlik ödəmələrin verilməsi ölkəmizdə şəhid ailələrinə göstərilən diqqətin növbəti təzahürüdür.*



Bu sözləri AZƏRTAC-ın bölgə müxbiri ilə söhbətində Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş Tərtər şəhər sakini şəhid Fəxrəddin Məmmədovun anası Qənirə Məmmədova deyib.

Fəxrəddin Məmmədov orduya yaşı çatmasa da, özünümüdafiə batalyonlarında əsgərlərimizə kömək göstərib. 18 yaşı tamam olanda isə hərbi xidmətə yollanıb. Tərtər-Ağdərə istiqamətində gedən döyüşlərdə fəal iştirak edib. 1993-cü ildə Vətənimizin müdafiəsi uğrunda gedən döyüşlərin birində şəhid olub.

"Şəhidlərin xatirəsi xalqımız tərəfindən əziz tutulur. Şəhid ailəsi olaraq dövlətin qayğısını daim hiss edirik. Bir çox imtiyazlardan faydalanırıq. Dövlət başçımızın şəhid ailələrinə birdəfəlik ödəmələrin verilməsinə dair imzaladığı Fərmana əsasən, bizim ailəyə də 11 min manat məbləğində birdəfəlik ödəmə olunub. Bir şəhid anası kimi belə bir humanist addıma görə Prezident İlham Əliyevə minnətdaram", - deyə Qənirə Məmmədova bildirib.

# Ermənistan ordusu hərbçilərini qeyri-döyüş şəraitində itirib

Azərbaycanın işğal olunmuş ərazilərində yerləşdirilən Ermənistan ordusunun bölmələrində qeyri-döyüş şəraitində özbaşınalıqlar və qanunsuzluqlar səbəbindən ölən və yaralananların sayı artmaqda davam edir.

AZƏRTAC xəbər verir ki, son günlər Ermənistanın xəbər portallarında və sosial şəbəkələrdə yayılan məlumatların təhlili nəticəsində dekabrın 15 günü ərzində, düşmən ordusunun ölən və yaralananlar da daxil olmaqla, 17 hərbçisini itirdiyi ortaya çıxır. Məlumatlardan məlum olur ki, qar uçqunu, yol-nəqliyyat qəzası və digər səbəblərdən düşmən ordusunun 7 hərbi qulluqçusu ölüb. Təhlükəsizlik qaydalarının pozulması, özünə qəsd, minaya düşmə və digər hadisələr nəticəsində isə 10 hərbçi ağır yaralanıb.

Ölən və yaralananların çoxu zabitlər və müqavilə əsasında xidmət edən hərbi qulluqçulardır.

AZƏRBAYCAN ORDUSU

*Sıra hazırlığı*

# "Biz qalib gələcəyik!"



"N" hərbi hissəsinin ön xətt bölmələrindən birindəyik. Sıra meydanında dərslə məşğul olan əsgərlərimiz diqqətimi cəlb etdi. Taqım komandirinin müavininin başçılığı altında şəxsi heyət sıra hazırlığı ilə məşğul idi. Dərs prosesindən qeydlər götürmək və əsgərlərimizi yaxından tanımaq üçün onlarla həmsöhbət oldum. Öyrəndim ki, gizir Tural Kərimov artıq doqquz ildir ki, ordu sıralarında xidmət edir. Əslən Cəlilabad rayonundan olan gizir keçirilən hər bir dərsin əsgərlər üçün xüsusi önəm daşıdığını qeyd etdi. "Döyüş hazırlığı planına uyğun olaraq əsgərlərin bilik və bacarıqlarının artırılması üçün mütəmadi olaraq dərslər keçirik. Plana uyğun olaraq bugünkü mövzumuz sırada duruş qaydası, rəisə yaxınlaşma və uzaqlaşma, düzgün hərbi salam verməkdir. Gördüyünüz kimi, əsgərlərimiz hər bir əmri dəqiq və düzgün icra edirlər. Sıra hazırlığı, nizam-intizamı yüksək olan bölmə döyüş meydanında hər bir tapşırığı rahatlıqla yerinə yetirə bilər. Ona görə də onlara daim intizamlı olmağı, verilən tapşırıqları vaxtında yerinə yetirməyi öyrədirik. Bu gün ordumuzun nə qədər intizamlı olduğunu bütün dünya bilir. Azərbaycan Ordusunun yaranmasının və Bakının işğaldan azad olunmasının 100 illik yubileylərinə həsr olunan möhtəşəm paradlar da bunun sübutudur."

Tural dərslərdə fərqlənən əsgərləri digərlərinə nümunə olaraq göstərildiyini də qeyd etdi. "Hər həftənin sonunda dərslərdə, təlimlərdə fərqlənən əsgərlərin adları yataqxanadakı divar mətbuatında, həftəlik protokolda qeyd olunur və digərlərinə nümunə kimi çəkilir. Həmçinin bayram günlərində evlərinə təşəkkür məktubu da göndərilir. Buna görə də onların hər biri dərslərdə fəal iştirak edir. Onlar təkcə adlarının nümunəvi əsgər kimi çəkilməyi üçün deyil, gələcək döyüşlərdə düşmənə öz bacarığı ilə qalib gələn əsgər olmaq üçün çalışırlar. Bu gün hər kəs kimi bizim bölməmiz də Ali Baş Komandanımızın döyüş əmrini səbirsizliklə gözləyir."

Masallı rayonundan olan əsgər Mahir Əliyev xidmətə yeni gəlməsinə baxmayaraq bu mühitə rahatlıqla alışdığını bildirdi: "Hərbi hissəyə ayaq basanda düşündüm ki, görəsən, bacaracam, Vətənə layiqli övlad olmağı? İlk günlər bir az darıxırdım. Komandirlərimiz bizə dərsləri elə maraqla başa salır və keçirlər ki, vaxtın necə ötdüyünü də bilmirdik. Bütün dərslərimiz maraqlıdır. Lakin sıra hazırlığına daha çox maraq göstərirəm. Çünki bacarıqlı, cəsur, peşəkar olsan da, əgər nizam-intizamın zəifdirsə, sən heç nə edə bilməzsən. Sıra duruşu, nizami addımlarla hərəkət, əsgəri salamvermə kənardan seyr edən insanlarda xoş ovqat yaradır. Keçirilən tədbirlərdə valideynlərin bizləri necə maraqla izləyib qürurlandıqlarını görürük. Ona görə də dərslərdə fəal iştirak edərək peşəkarlığımızı daha da artırırıq."

Əsgər Ruslan Səfiyev dərslərin yüksək səviyyədə keçdiyini və öyrəndiklərinə görə komandirlərinə minnətdar olduğunu bildirdi: "Xidmətimin çox hissəsini geridə qoymuşam. Əsgər formasını əynimə geydiyim gündən indiyə kimi əldə etdiyim biliklərə görə zabitlərimizə borcluyam. Gənc əsgər hazırlığı dövründə hər gün sıra hazırlığı ilə məşğul olurduq. Komandirlərimiz deyirdilər ki, sıra addımlarınız elə mükəmməl olmalıdır ki, hərbi hissədən kənarda olan vətəndaşlar da ayaq səslərinizi hiss etməlidirlər. Artıq ordumuzun tam formalaşmış əsgərlərindən biriyəm. Boş vaxtlarımda da bilmədiklərimi komandirlərimdən öyrənirəm."

Ruslan işğal altında olan Cəbrayıl rayonunun Qaraġac kəndindəndir. Onun yurd həsrəti çəkdiyini gözlərindən oxumaq elə də çətin deyildi. Hərçənd ki, orada doğulmasa da, əcdadlarının ruhu o torpaqlardadır. "Hər birimiz Azərbaycanın müxtəlif bölgələrindən xidmətə gəlmişik. Bakıda dünyaya göz açmışam. Oraları görməsəm də, gözəl yerlər olduğunu təsəvvür etmək çətin deyil. Hərbi xidmətə çağırılanda atam mənə "Oğul, ən böyük arzun nədir?", - deyə soruşdu. Mən atama dedim ki, tezliklə Cəbrayılımızı düşməndən azad edib sənə bu müjdəni vermək istəyirəm. Bu mənim ən böyük arzumdur. Tez bir zamanda Ali Baş Komandanımızın döyüş əmriylə təkcə Cəbrayılı yox, işğalda olan bütün torpaqlarımızı azad edib xalqımıza qələbə sevincini bəxş edək."

Bu arzu təkcə əsgər Ruslan Səfiyevin yox, Elzan Sadıxzadənin, Tural Şərifovun, Nicat Əhmədovun, Hatəm Qasımovun və digər əsgərlərin də, ümumilikdə bütöv Azərbaycan xalqının arzusudur. Onlar tezliklə döyüşə atılmaq, qələbə qazanmaq istəyirlər. "Biz qalib gələcəyik", - deyirlər. Həmin gün uzaqda deyil.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

# MOİK idmançıları güləş üzrə Azərbaycan çempionatında 14 medal əldə ediblər

Bakı İdman Sarayında böyüklər arasında sərbəst və yunan-Roma güləşi üzrə Azərbaycan çempionatı keçirilib. Dekabrın 18-də start götürən yarışda əvvəlcə yunan-Roma güləşçiləri mübarizəyə qoşulublar. Ümumilikdə güləşin bu növü üzrə 206 pəhləvan qüvvəsini sınayıb. Dünya Güləş Birliyinin (UWW) qaydalarına uyğun təşkil olunan yarışda 10 çəki dərəcəsi üzrə mükafatçılar müəyyənləşib və onlar arasında MOİK idmançıları da var.

60 kq çəki dərəcəsində güləşən Murad Bazarov ilə 87 kq çəki dərəcəsində yarışan Rafiq Hüseynov bütün rəqiblərini yenərək qızıl medal əldə ediblər. Həmçinin Murad Məmmədov (63 kq) yalnız finalda uduzmaqla gümüş, Cavid Kazımov (77 kq) ilə Orxan Nuriyev (97 kq) isə bürünc medal qazanıb. Rövşən İmranov (55 kq) isə bürünc uğrunda güləşdə məğlub olmaqla, yarışı 5-ci pillədə tamamlayıb.

Dekabrın 20-də isə 9 fərqli çəki dərəcəsində çıxış edən sərbəst güləşçilər arasında mükafatçılar müəyyənləşib. Ümumilikdə 205 pəhləvanın qüvvəsini sınadığı güləşin bu növündə də MOİK idmançıları 1 "qızıl" və 8 "bürünc" olmaqla, ümumilikdə 9 medal əldə ediblər.



70 kq çəki dərəcəsində mübarizə aparan Ağahüseyn Mustafayev bütün rəqiblərini məğlub edərək qızıl medal qazanıb və fəxri kürsünün 1-ci pilləsinə qalxıb. 8 idmançımız - Əfqan Xaşalov (57 kq), Elmar Kazımov (65 kq), Əşrəf Aşurov, Pənah İlyaslı (70 kq), Nəsib İsayev, Coşqun Əzimov (74 kq), Orxan Abbasov (79 kq) və Teymuraz İsmayılov (125 kq) isə bürünc medal əldə ediblər.

**Elvin YAQUBOV,**
**MOİK**

# İdman

## Sərbəst güləş üzrə Azərbaycan çempionatına yekun vurulub



Dekabrın 20-də Bakı İdman Sarayında sərbəst və yunan-Roma güləşi üzrə Azərbaycan çempionatı başa çatıb.

Yarışın ikinci günündə 57, 61, 65, 70, 74, 79, 86, 97 və 125 kiloqrama qədər çəki dərəcələrində çıxış edən sərbəst güləşçilər mübarizə aparıblar. Ümumilikdə, güləşin bu növündə 205 pəhləvan qüvvəsini sınayıb.

Ən yüngül çəki dərəcəsində (57 kq) yarışın qalibi Mahir Əmiraslanov ("Neftçi" İC) olub. Bundan başqa, 61 kiloqramda Mircəlal Həsənzadə, 65 kiloqramda Turan Bayramov, 70 kiloqramda Ağahüseyn Mustafayev, 74 kiloqramda Hacımurad Hacıyev, 79 kiloqramda İbrahim Yusubov, 86 kiloqramda Murad Süleymanov, 92 kiloqramda Şamil Zubairov, 97 kiloqramda Nurməhəmməd Hacıyev və ən ağır çəkidə - 125 kiloqramda isə İslam Abuyev çempion adını qazanıblar.

## Qətərdə keçirilən ağır atletika üzrə beynəlxalq turnirdə idmançımız bürünc medal qazanıb



Dekabrın 21-də Qətərin paytaxtı Dohada keçirilən ağır atletika üzrə 5-ci Beynəlxalq Qətər kuboku turnirində idmançımız Səbinə Əzimova bürünc medal qazanıb.

S.Əzimova 55 kiloqram çəki dərəcəsində qüvvəsini sınayıb. Atletimiz birdən qaldırma hərəkətində 74 kiloqramı, təkanla qaldırma hərəkətində isə 92 kiloqramı ram edib. Ümumi 166 kiloqram (74+92) nəticə ilə Səbinə Əzimova bürünc medala sahib çıxıb.

Qeyd edək ki, Səbinə Əzimovadan əlavə, Boyanka Kostova da körpücük üzərinə çıxacaq.

Turnir "Tokio 2020" Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyır.

## Millimiz böyük hesablı qələbə qazanıb



On doqquz yaşadək futbolçulardan ibarət Azərbaycan yığması təlim-məşq toplanışı çərçivəsində dekabrın 19-da sonuncu yoxlama oyununu keçirib.

Region Liqasında çıxış edən "Tufan"la qarşılaşma U-19-un 8:0 hesablı qələbəsi ilə başa çatıb.

Yığmanın heyətində Musa Qurbanlı het-trik edib. Vəli Məmmədov və Tural Bayramlının hərəyə 2 qol vurduğu oyunda Rüfət Abdullazadə də fərqlənib.

Yığma bununla da təlim-məşq toplanışını başa vurub.

## "Qəbələ"nin idmançısı qol güləşi üzrə Azərbaycan kubokunda fərqlənib



"Qəbələ" idman klubunun təmsilçisi Sənan Şükürov növbəti uğuruna imza atıb.

"Qəbələ" idman klubuna istinadla xəbər verir ki, S.Şükürov qol güləşi üzrə Azərbaycan kuboku yarışlarında 80 kiloqram çəki dərəcəsində qüvvəsini sınayıb.

Yarışda bütün rəqiblərini məğlub edən S.Şükürov ölkə kubokunun qalibi adını qazanıb.

**AZƏRTAC-ın**
**materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 1036
Nüsxə 3525